*Dünya sürətlə dəyişir, ənənəvi enerji mənbələri isə tükənir. Qlobal arenada artıq neft və qazın yerini günəş panelləri, külək turbinləri və digər bərpaolunan enerji mənbələri tutmağa başlayıb. Bir çox ölkə bu istiqamətdə mühüm irəliləyişlər əldə edib və "yaşıl enerji"yə keçidi sürətləndirir. Bu, həm ətraf mühitin qorunması, həm də enerji təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Bu prosesdə Azərbaycanın rolu və perspektivləri xüsusilə diqqət çəkir. Günəşli iqlimi, güclü külək axınları və geniş coğrafi imkanları ilə ölkəmiz bərpaolunan enerji sektorunda böyük potensiala malikdir. Rəqəmlər göstərir ki, Azərbaycanın bu sahədə irəliləmək üçün kifayət qədər resursları və siyasi iradəsi var.*

Hökumət tərəfindən həyata keçirilən layihələr, xarici investorlarla əməkdaşlıqlar və texnoloji yeniliklər ölkəmizi bu sahədə regional liderə çevirmək üçün əlverişli zəmin yaradır. Azərbaycanın "yaşıl enerji" strategiyası təkcə daxili ehtiyacları ödəməyə deyil, həm də ixrac potensialını artırmağa yönəlib. Xəzər dənizinin külək enerjisi potensialı, Qarabağ və Şərqi Zəngəzurda planlaşdırılan günəş və hidroelektrik layihələri ölkəmizi gələcəkdə Avropanın və regionun əsas enerji təchizatçılarından birinə çevirəcək. "Yaşıl enerji" təkcə ekologiya və iqtisadiyyat üçün deyil, həm də geosiyasi baxımdan önəmlidir. Qaz və neftə olan qlobal tələbatın dəyişdiyi bir dövrdə bərpaolunan enerji mənbələrinə investisiya qoyan ölkələr gələcəyin qlobal oyunçuları sırasına daxil olacaqlar. Azərbaycan da bu dəyişən dünyada öz mövqeyini möhkəmləndirərək "yaşıl enerji"ni inkişaf etdirmək və enerji təhlükəsizliyini təmin etmək yolunda inamla addımlayır.

Bu baxımdan, ölkəmizin bərpaolunan enerji mənbələrinə yönəlmiş siyasəti həm iqtisadi, həm də ekoloji baxımdan mühüm əhəmiyyətə malikdir. Dövlətimizin "yaşıl enerji" sahəsində həyata keçirdiyi layihələrin əsas məqsədlərindən biri də Azərbaycanda elektrik enerjisi istehsalına sərf olunan təbii qaza qənaət olunması və Avropaya ixracın həcminin artırılmasıdır.

Qeyd edək ki, Azərbaycan artıq bu potensialı dəyərləndirərək "Masdar", "ACWA Power", "bp", "Fortescue" və digər beynəlxalq nəhənglərlə mühüm əməkdaşlıqlara imza atıb. Bu müqavilələr təkcə külək enerjisinin inkişafını deyil, həm də gələcəyin enerjisi sayılan "yaşıl hidrogen" istehsalını nəzərdə tutur. Hazırda ölkəmiz təkcə hidrogen istehsalı ilə yanaşı, onun ixracına yönəlmiş mühüm layihələr həyata keçirir. Xəzər dənizindən başlayaraq, Qara dəniz və Avropa bazarlarına qədər uzanan "Xəzər-Qara dəniz-Avropa" və "Mərkəzi Asiya-Azərbaycan-Avropa" "yaşıl enerji" dəhlizləri çərçivəsində beynəlxalq tərəfdaşlarla əməkdaşlıq davam etdirilir. Bu isə Azərbaycanın Avropanın etibarlı "yaşıl hidrogen" tədarükçüsünə çevrilməsinə imkan yaradacaq. Rəsmi Bakı "yaşıl hidrogen" texnologiyalarına sərmayə qoymaqla təkcə enerji sektorunda deyil, həm də ekoloji sahədə mühüm irəliləyişlərə nail olmağa çalışır. Ölkənin 2050-ci ilə qədər karbon emissiyalarını 40 faiz azaltmaq hədəfi məhz bu innovativ enerji həlləri sayəsində reallığa çevriləcək.

# “Yaşıl enerji"yə keçid yeni dövrün tələbidir







Prezident İlham Əliyev yanvarın 20-də Davosda Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsində "yaşıl enerji"nin perspektivləri barədə ətraflı məlumat verdi. Bu xüsusda Çin kimi inkişaf etmiş dövlətin bu sahədə olan təcrübəsini yüksək qiymətləndirən ölkə başçımız qeyd etdi ki, bizim 2027-ci ilə qədər olan hədəfimiz 2 qiqavat həcmində Günəş və külək elektrik enerjisini hasil etməkdir. 2030-cu ilə qədər isə bu hədəf 6 qiqavatdır. Prezident deyib: "Onu da qeyd etmək istəyirəm ki, bu layihələrə sərmayə yatıran xarici şirkətlər olan investorlar, o cümlədən Azərbaycandan olan yerli şirkətlər Çin texnologiyasından istifadə edirlər. Günəş panelləri Çində istehsal olunur. İndi bizim həyətlərimiz enerjinin tədarükü imkanları üzərində işləyirlər və biz ən yaxşı batareyaların Çində istehsal olunduğunu müəyyən etmişik. Mən bu möhtəşəm uğur münasibətilə Çin istehsalçılarını təbrik edirəm. Çünki burada söhbət məhsulun keyfiyyəti və qiymətindən gedir. Heç kim bu rəqabəti apara bilmir".

COP29-un ölkəmizdə keçirilməsi Azərbaycanın siyasi və iqtisadi nüfuzunun göstəricisi olmaqla yanaşı, alternativ enerji istehsalı sahəsində zəngin potensiala malik olduğundan da xəbər verir. Prezident İlham Əliyevin 2021-ci il 3 may tarixli "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamı Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması ilə bağlı yeni müasir konseptual yanaşmaları da özündə ehtiva edir. Hazırda respublikamızın quruda 27 qiqavatdan çox külək və günəş enerjisi, Xəzər dənizində isə 157 qiqavat külək enerjisi potensialı mövcuddur. Eyni zamanda işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda külək, günəş və hidroenerji potensialının həcmi 10 qiqavatdan çoxdur. Bu göstəricilər isə özlüyündə ölkədə ekoloji mühitin yaxşılaşdırılması və turizm cəlbediciliyinin artırılmasına, elektrik ixracı potensialının yüksəldilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Azərbaycan sürətlə inkişaf edir, sənaye güclənir, əhali artır və bununla da elektrik enerjisinə olan tələbat yüksəlir. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq aparılan araşdırmalar göstərir ki, 2025-ci ildə ölkəmizdə elektrik enerjisinə olan tələbat 25-28 milyard kilovat-saata, ixrac potensialı isə 1,8 milyard kilovat-saata çatacaq. Bu rəqəmlər Azərbaycanın enerji sektorunda yeni hədəflər müəyyənləşdirdiyini və güclü strateji planlama apardığını göstərir. Bu böyük tələbatı qarşılamaq və ixrac imkanlarını genişləndirmək üçün ölkəmizdə ciddi layihələr həyata keçirilir. Enerji sektorunda ənənəvi resurslarla yanaşı, bərpaolunan enerji mənbələri də geniş tətbiq edilir. Günəş, külək və hidroelektrik potensialından istifadə etməklə Azərbaycan həm daxili tələbatı ödəyir, həm də regionda mühüm enerji ixracatçısı kimi mövqeyini gücləndirir.

Azərbaycanın enerji strategiyası təkcə iqtisadi inkişafı deyil, həm də ekoloji tarazlığı nəzərdə tutur. Qlobal çağırışlara cavab olaraq ölkəmizdə bərpaolunan enerji sahəsinə yatırımları artırılır.

**Nurlan ABDALOV,**
**"Respublika".**

Respublika .- 2025.- 15 fevral (№ 35). - S.9.